**Məlaikə ƏLİYEVA,**
*ADMİU-nun dissertantı*

# Dinlər arasında Tövhid anlayışı

Elə bununla əlaqədar olaraq dinlər arasında vəhdət və ayrı-seçkilik həmişə dinşünasların diqqət mərkəzinə çevrilmişdir. Bu, həm dinlər arasında, həm də din daxilində mövcud olan bir məsələdir. Əlbəttə, din daxilində vəhdət daha çox nəzərə çarpır. İslam mədəniyyətində dinlərin qarşılıqlı münasibəti özünə məxsus yerə malikdir. Quranda bu mövzu ətrafında bəhslər və müqayisələr aparılmışdır.

Quran bütpərəstliyi qətiyyətlə pislədiyi halda başqa dinlər haqqında tətbiqi bəhs etmişdir. Burada əsasən iki məsələ - haqq dinə malik olmaq və başqa dinlərlə cəmiyyətdə müştərək yaşamaq qeyd olunur. Lakin buna baxmayaraq islam dini meydana gəldikdən sonra başqa dinlər Allah dərgahında qəbul deyildir. Buna misal olaraq Allah Təala Quranın Ali-İmran surəsinin 85-ci ayəsində buyurub: «Hər kim İslamdan başqa bir din ardınca gedərsə, (o din) heç vaxt ondan qəbul olunmaz və o, axirətdə zərər çəkənlərdən olar.». İslam dini sonuncu din olduğu üçün qiyamət gününə qədər bəşərin hidayəti onun üzərindədir. İslamın yeni suallara cavab verməyə, insanların mənəviyyatını dirçəltməyə, içtimai və fərdi idarəetmədə düzgün yol göstərməyə qüdrəti vardır. Tarix boyunca müxtəlif etiqadlara malik olan insanlar daima mübahisələrlə və hətta müharibələrlə qarşılaşır və doğru olduqlarını iddia edirlər. Bu, Quran nəzəri ilə etibar olunan bir meyardır. Məntiqə əsaslanan quran başqalarından öz iddialarına aid dəlil gətirməyi tələb edir. Quran xristian və yahudilər barədə buyurur: «(Yəhudilər və xaçpərəstlər) dedilər: «Cənnətə yəhudi və nəsaradan başqa heç kim daxil olmayacaq». Bu ancaq onların xülyalarıdır. De: «Əgər doğru deyirsiniz, dəlilinizi gətirin!» (Bəqərə,111). Mənə elə gəlir ki, Allah -Təalanın buyurduğu bu kəlmələr yetərincə tutarlı və iddialıdır.

Ancaq bununla belə İslam dini, müxtəlif dinlərin bir-biri ilə sülh şəraitində yaşamasının tərəfdarıdır. Quran onları tövhid ətrafında birləşməyə çağırır. Ali-İmran surəsinin 64-cü ayəsində buyurulub: (Ya Məhəmməd) Söylə ki, «Ey kitab Əhli! Sizinlə bizim aramızda eyni olan bir sözə tərəf gəlin! (ki) Allahdan başqasına ibadət etməyək, ona şərik qoşmayaq, Allahı qoyub bir-birimizi Rəbb qəbul etməyək...»

Göründüyü kimi bu ayədə bütün dinlərə mənsub olan insanlar bir olan Allahın təkliyinə iman gətirməli və ona şərik qoşmamalıdırlar.

Allahın təkliyinə iman gətirib, müxtəlif dinlərə mənsub olan bir çox dünya alimlərinin və mütəfəkkirlərin TÖVHİD haqqında fikirlərini nəzərə çatdırmaq məqsədəuyğun olardı;

Görkəmli amerikan alimi, diplomatı və ictimai xadimi 1787-ci ildən Amerika Birləşmiş Ştatlarının iclaslarının dua ilə başlanması təklifinin təşəbbüskarı Bencamin Franklin Allahın şərəfinə belə söyləmişdir: "Mənim imanımın simvolu birdir: mən kainatın yaradıcısı olan və onu öz qüdrəti ilə idarə edən Vahid Allaha inanıram. Məhz buna görə biz Ona qibtə etməliyik".

Böyük alman alimi planetlərin hərəkət qanununu kəşf etmiş İohan Kepler kainatdakı bütün mövcudatın nizam əsasında yaradıldığına və bunun böyük Yaradanın qüdrəti ilə baş verdiyinə o qədər dərindən inanırdı ki, hətta öz əsərlərində "cənabi Allahın kainata göndərdiyi bizə riyazi şəkildə aşkar etdiyi rasional qaydanın və harmoniyanın kəşfindən ibarət olduğunu" həmişə vurğulayırdı.

Böyük ingilis alimi İ.Nyuton nəinki hər şeyin Allahdan gəldiyinin tərəfdarı idi, hətta bunun mümkünlüyünün sübuta ehtiyacı olmadığını göstərirdi. Akademik S.İ.Vavilov İ.Nyutona həsr etdiyi bioqrafik kitabında göstərir ki, İ.Nyuton nəinki olduqca dindar bir insan idi, o, həm də ilahiyyatçı alim idi. İ.Nyuton teologiyada fövqəlada bilik sahibi idi və əhdi-cədid kitablarını dərindən dərk etməkdə İngiltərədə çox az adam ona tay ola bilərdi. "Naturfəlsəfənin riyazi əsasları" əsərinin sonuncu kitabında İ.Nyuton kainatın sistemi haqqında belə yazır: "Günəşin, planetlərin və kometlərin ən incə şəkildə olan bu vəhdəti ən Qüdrətli və ən Müdrik varlığın məqsədi və ixtiyarı olmadan mümkün ola bilməzdi. Alim "Naturfəlsəfənin riyazi əsasları" əsərini cənabi Allaha şükürlərlə bitirir. Nyutonun cazibə qüvvəsi haqqında fikirlərini soruşduqda demişdir: «Mənə elə bir dayaq nöqtəsi göstərin ki, mən yer kürəsini öz orbitindən çıxardım». Bu da onun Allahın qüdrətli və hər şeyə qadir olduğuna inamının böyüklüyüdür.

Allahın varlığına və qüdrətinə inam hissi böyük təbiətşünasları heç zaman tərk etməyib. Mahmut karakaş "Müsbet ilimlerde müslüman alimler" kitabında göstərir ki, İbn Sina hər hansı bir məsələ üzərində araşdırmalara başladıqda əvvəlcə dəstəmaz alar, məscidə gedib namaz qılar, sonra isə həmin məsələnin həllinə başlar və məqsədinə nail olmaq üçün Allaha dualar edərdi.

Elmi və elmi-kütləvi kitablarda təbiət qanunlarının onları kəşf etmiş alimlərin isimləriylə adlandırılması hallarına tez-tez rast gəlirik. Məsələn, Nyuton qanunu Kulon qanunu, Henri qanunu və s. Lakin bu istilahlar o qədər də uğurlu ifadələr deyil. Hər bir təbiətşünas alim özündən yeni bir qanun vermir. Qanunları yaradan yalnız və yalnız Uca Allahdır. Alimlər sadəcə olaraq bu qanunların təbiətdə mövcud olduqlarını, bu qanunları müzakirə etdiklərini bildirirlər. Bu mənada E.Rezerfordun xatirəsi çox maraqlıdır. Bretçer yazır ki, «Rezerfordun əməkdaşlarından biri məşğul olduğu nüvə reaksiyaları haqqında danışarkən



*Yer üzərində hər bir insan doğulduğu gündən etibarən onun fitrəti müsəlman olur. Onun əqli də tövhidlə bağlı olur. Uca Allah buyurur; «Batildən haqqa tapınaraq üzünü Allahın fitri olaraq İnsanlara verildiyi dinə tərəf tut. Allahın dinini heç vəchlə dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların əksəriyyəti bilməz» (ər-Rum: 30) Bundan başqa mötəbər hədislərdən birində də Əbu Hureyrədən rəvayət olunur ki: «Peyğəmbər (s.ə.s.) dedi: «Hər doğulan insanın fitrəti müsəlmandır. Onu sonradan ata-anası xristian, yəhudi, məsusi (atəşpərəst) edib» (Buxari, Müslim)*

onları "mənim reaksiyalarım" adlandırdıqda Rezerfordun bənizi bir an içərisində qızardı və çıxış edənin sözünü açıqlıqla kəsərək: "Məgər siz Allahsınızmı ki, onları «mənim reaksiyalarım» adlandırırsınız?»

Dini dünyagörüşlərinə, cənabi Allaha inamına görə dahi şəxsiyyətlərin illərlə təqib olunmaları, həbsxanalara salınmaları, sürgünlərə göndərilmələri halları az olmayıb. Belə hallara daha çox ötən əsrin 20-30-cu illərində SSRİ dövründə rast gəlmək olar. Rus knyazları nəslindən olan tanınmış cərrah Valentin Feliksoviç Voyno-Yasenetskiy olduqca dindar bir insan idi. 1921-ci ildən etibarən o cərrahlıqla bərabər həm də kilsədə keşişlik edirdi. Buna görə də tez-tez "ÇK"-ya çağrılır, təhqiredici suallara cavab vermək məcburiyyətində qalırdı. Belə növbəti halların birində"ÇK" zabitinin: "Məgər siz öz allahınızı görmürsünüzmü?" kinayəli sualına Voyno-Yasentskiy belə tutarlı cavab verir: "Mən beyində çoxlu sayda cərrahiyyə əməliyyatı aparmışam, lakin orada heç vaxt ağıla rast gəlməmişəm".

XV-XVI əsrlərdə yaşamış Kopernik (Copernic) İslam elmindən aldığı ilhamla dünyanın həm öz oxu ətrafında, həm də günəşin ətrafında fırlandığını yəqin etdiyi zaman, Xristian qanunlarına qarşı böyük bir günah işlədiyini hiss etmiş və öz fikrini ölənə kimi bir sirr olaraq saxlamaq məcburiyyətində qalmışdır.. Ona görə də onun məşhur əsəri ancaq 70 yaşında öldüyü gün nəşr edilə bilmiş və bu talehsiz əsər XVIII əsəri kimi kilsənin qadağan etdiyi kitablar siyahısında qalmışdır.

XVI-XVII əsrlərdə yaşayan böyük italyan alimi Qaliley də Koperniki təsdiq edən əsərindən ötrü 70 yaşında inkvizisiya məhkəməsinə verilmiş, "Kitabi-müqəddəsə" adlı zidd fikirdə olan bir əsər yazdığı üçün elmi davasını diz üstə inkar etməyə məcbur edilmiş və öz-özünü rəsmən təkzib edən sözlərini açıqdan söyləyərkən xəfif bir səslə də dünyanın hələ də fırlandığını:

"— E pur si mueve!" (yenə də dünya fırlanır.) – deyə öz vicdanına sədaqətlilik etmədi. Əlbəttə ki, zavallı Qalileyin çəkdiyi əzab-əziyyət bircə bundan ibarət deyildi. O, ömürlük ev dustağı edildi və 74 yaşında öldüyündə də meyidi Xristian qəbiristanlığına aparılmadı.

Bütün bunlara baxmayaraq, Təcrübi-fizika elminin təsisçisi olaraq qəbul edilən bu talehsiz elm adamı Xristian fanatiklərinin əlindən çətinliklə canını qurtara bilmişdi. Çünki ondan bir müddət əvvəl, XV əsrdə Kopernik nəzəriyyəsinə isnad edilərək kainatda bir çox dünyalar (aləmlər) olduğunu və həmin dünyaların ruhunun da Allah olduğunu irəli sürən məşhur İtalyan filosofu "Jordanno Bruno", Roma inkvizisiya məhkəməsinin müvafiq qərarı ilə diri-diri yandırılmışdı.

Beləliklə başqa dinlərə mənsub olmaqlarına baxmayaraq bir çox dünya alimlərinin və mütəfəkkirlərin Tövhidinin, yəni tək Allaha imanlarının nə qədər güclü olduqları sevindirici haldır. Lakin, yenə də unutmaq lazım deyil ki, İslam dini sonuncu din olaraq qalıb və əbədiyyata qədər də qalacaq. Ümumiyyətlə, bütün bəndələrin imanı nə qədər güclü olarsa, onun axirəti üçün topladığı sərvəti bir o qədər çox olar. Çalışmaq lazımdır ki, ən azından bu dünyada imanlı şəkildə və xeyirli işlər görməklə Cənnətə daxil ola bilək. Necə ki, İmam Safii (Allah ona rəhmət etsin!) deyir:

**Ağlayırdın, ey insan, sən**
**dünyaya gələndə,**
**Gülüb sevinirdilər, insanlar**
**yan-yörəndə.**
**Özün üçün gün ağla,**
**elə işlər gör ki, sən**
**Onlar ağlayan zaman**
**sevinəsən, güləsən.**

**ADMİU-nun teatr rejissorluğu kafedrası tərəfindən təqdim edilib - 27.02.2007.**
**Rəyçi: filologiya elmləri doktoru, professor B.Hacıyev.**

**Conseption of Tovhid in between religious**
**Summary**

Along the history people belong to the different faith meet with conflicts and they put in a claim for their truthfulness. And This is trustworthy criterion from the point view Guran.